# Orta dəhliz etibarlı və proqnozlaşdırıla bilən variant kimi görünməyə başlayıb

**Logistika və ticarətdə baş verən qlobal dəyişikliklər fonunda Orta dəhliz getdikcə daha çox əhəmiyyət kəsb edir və Azərbaycan onun inkişafında əsas rol oynayır. Ölkə səmərəli infrastruktur və tranzit imkanları təmin edir, eyni zamanda rəqəmsallaşma, davamlı həllər və beynəlxalq əməkdaşlığa diqqət yetirilməsi uğur üçün həlledici amilə çevrilir.**



Türkiyənin logistika və nəqliyyat üzrə eksperti, "Middle Corridor Logistics" şirkətinin nümayəndəsi Hilal Ağun AZƏRTAC-a müsahibəsində dəhlizin perspektivləri və bu prosesdə Azərbaycanın rolu barədə fikirlərini bölüşüb.

*- Qlobal logistika və ticarətin dəyişən strukturunda Orta dəhlizin hazırkı rolunu necə xarakterizə edərdiniz?*

- Orta dəhliz Asiya ilə Avropa arasında etibarlı körpü kimi getdikcə daha çox strateji əhəmiyyət kəsb edir. Bu dəhliz ənənəvi Şimal və Cənub marşrutları ilə müqayisədə daha qısa və sərfəli alternativ təklif edir, enerji və yük daşımalarının şaxələndirilməsini asanlaşdırır, təchizat zəncirlərinin dayanıqlılığını artırır və regional əməkdaşlığı gücləndirir. Bu, Orta dəhlizi sadəcə tranzit marşrutu olmaqla yanaşı, həm də innovativ davamlı logistika həllərinin tətbiqi üçün platformaya çevirir.

*- Sizcə, Orta dəhliz digər marşrutlardan, məsələn, Şimal və ya Cənub dəhlizindən nə ilə fərqlənir?*

- Şimal marşrutu, əsasən, Rusiyadan keçir, Cənub marşrutu isə daha çox dəniz nəqliyyatına əsaslanır. Orta dəhliz bunların əksinə olaraq, avtomobil və dəmir yolu nəqliyyatını birləşdirir, səyahət vaxtını azaldır, xərcləri optimallaşdırır və geosiyasi riskləri şaxələndirir. Bu mənada, bu, təkcə logistika baxımından deyil, həm də daha geniş kommersiya strategiyası nöqteyi-nəzərindən vacibdir.

*- Yaxın 5-10 ildə dəhlizin inkişafının hansı sahələrini daha perspektivli görürsünüz?*

- Qarşıdakı illərdə üç əsas sahə müəyyən edilə bilər: infrastrukturun modernləşdirilməsi, rəqəmsallaşma və logistika inteqrasiyası. Liman və dəmir yolu imkanlarının genişləndirilməsi, rəqəmsal platformalardan istifadə etməklə proseslərin idarə edilməsi və transsərhəd koordinasiya mexanizmlərinin gücləndirilməsi səmərəliliyi əhəmiyyətli dərəcədə artıracaq. Bundan əlavə, dayanıqlı nəqliyyat həlləri və "yaşıl logistika"ya investisiyalar uzunmüddətli dəyər yaradacaq.

*- Son geosiyasi dəyişikliklər Orta dəhlizin əhəmiyyətinə və ona olan tələbata nə dərəcədə təsir edib?*

- Geosiyasi qeyri-sabitlik və regional böhranlar birbaşa olaraq alternativ marşrutlara tələbatın artmasına səbəb olub. Bu kontekstdə Orta dəhliz etibarlı və proqnozlaşdırıla bilən bir variant kimi görünməyə başlayıb. Regional əməkdaşlıq və təkmilləşdirilmiş tranzit şəraiti təkcə ticarət həcminin artmasına kömək etməyib, həm də Orta dəhlizi qlobal logistika strategiyalarının ayrılmaz elementinə çevirib.

*- Azərbaycan Orta dəhliz çərçivəsində əsas tranzit rolunu oynayır. Ölkənin regional logistika və infrastrukturun inkişafına verdiyi töhfəni necə qiymətləndirirsiniz?*

- Azərbaycan limanları, dəmir yolu şəbəkələri, müasir gömrük infrastrukturu sayəsində dəhlizin sütunu olub. Ölkənin strateji vizyonu tranzit proseslərini sürətləndirməyə və logistika xərclərini azaltmağa yönəlib. Bu sahəyə qoyulan investisiyalar təkcə Azərbaycanın deyil, bütün Orta dəhlizin rəqabət qabiliyyətini artırır.

*- Hazırda azərbaycanlı tərəfdaşlarla limanlar, dəmir yolları və gömrük orqanları üzrə hansı əməkdaşlıq formalarını həyata keçirirsiniz və ya planlaşdırırsınız?*

- İlk növbədə, əməkdaşlıq məlumat mübadiləsi, rəqəmsal izləmə sistemləri və proseslərin standartlaşdırılmasına yönəlib. Prioritet sahələrə limanlar və dəmir yolları arasında kompleks planlaşdırma, sürətli gömrük rəsmiləşdirilməsi və birgə investisiya layihələri daxildir. Gələcək planlara daha qabaqcıl logistika texnologiyalarının və "yaşıl nəqliyyat" layihələrinin tətbiqi də aiddir.

*- Orta dəhlizin inkişafında TRACECA, Aİ və ya "Bir kəmər, bir yol" təşəbbüsü kimi beynəlxalq təşkilatların və təşəbbüslərin rolunu necə qiymətləndirirsiniz?*

- Bu təşəbbüslər əsas rola malikdir, onlar infrastruktur layihələrinin icrasına, maliyyələşdirilməsinə və texniki standartların tətbiqinə dəstək verir. Bundan başqa, onlar beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi vasitəsilə dəhlizin sürətləndirilmiş inteqrasiyasına kömək edir. Bununla belə, uzunmüddətli uğur əldə etmək üçün regional iştirakçılar öz strategiyalarını və koordinasiya mexanizmlərini gücləndirməlidirlər.

*- Hansı amillər əlavə yük axınlarını cəlb edə bilər: islahatlar, marketinq və ya rəqəmsallaşmaya investisiyalar? Marşrut boyu logistikanı optimallaşdırmaq üçün istifadə olunan hər hansı innovativ həllər və ya texnologiyaları sadalaya bilərsiniz?*

- Rəqəmsallaşma və islahatlar əlavə yük axınının cəlb edilməsində ən təsirli amillər olacaq. Müasir izləmə sistemləri, blokçeyn əsaslı logistika həlləri və süni intellektə əsaslanan planlaşdırma əməliyyatların səmərəliliyini əhəmiyyətli dərəcədə artıra bilər. Eyni zamanda marketinq və beynəlxalq məlumatlılığın artırılması Orta dəhlizin etibarlı ticarət yolu kimi imicini gücləndirəcək. İnnovativ texnologiyalar şəffaflığı və proqnozlaşdırılma dərəcəsini artıracaq, gecikmələri minimuma endirəcək.

Azərbaycan.- 2025.- 25 sentyabr (№205).- S.9.